# Şuşa şəhərinə növbəti köç karvanı yola salınıb











Prezident İlham Əliyevin tapşırığına uyğun olaraq, işğaldan azad edilmiş ərazilərə Böyük Qayıdışa dair I Dövlət Proqramına əsasən, yenidən qurulan Şuşa şəhərinə respublikanın müxtəlif ərazilərində yataqxana, sanatoriya və inzibati binalarda müvəqqəti məskunlaşmış ailələrdən ibarət növbəti köç karvanı Bakı şəhərinin Qaradağ rayonundan yola salınıb.



AZƏRTAC xəbər verir ki, bu mərhələdə Şuşa şəhərinə 49 ailə - 191 nəfər köçürülüb. Doğma yurda qayıdan Şuşa sakinləri hərtərəfli dövlət qayğısı ilə əhatə olunduqlarına görə Prezident İlham Əliyevə və birinci xanım Mehriban Əliyevaya təşəkkür ediblər.

Onlar həmçinin torpaqlarımızı işğaldan azad edən rəşadətli Azərbaycan Ordusuna, qəhrəman əsgər və zabitlərimizə minnətdarlıqlarını bildirib, bu yolda canlarından keçən şəhidlərimizə rəhmət diləyiblər.

❖ ❖ ❖

Şuşaya çatan ailələrə yeni mənzillərinin açarları təqdim olunub. Doğma yurduna qovuşanlara açarların təqdim edilməsi mərasimində Şuşa rayonunda Azərbaycan Respublikası Prezidentinin Xüsusi Nümayəndəliyinin, Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin rəsmiləri və digər şəxslər iştirak ediblər. Şuşaya daimi yaşayış üçün köçürülən ailələrə yeni tikilmiş binalarda mənzillər verilib.

Qeyd edək ki, hazırda Qarabağda və Şərqi Zəngəzurda, ora köçürülən keçmiş məcburi köçkünlərlə yanaşı, bu bölgədə aparılan layihələrin icrasında çalışan, həmçinin ayrı-ayrı dövlət qurumlarının yerli bölmələrində xidməti vəzifələrini yerinə yetirən, yenidən fəaliyyətə başlamış səhiyyə, təhsil, mədəniyyət, turizm, sənaye, energetika müəssisələrində işləyən, ümumilikdə, 30 minə yaxın insan yaşayır.



## Keçmiş məcburi köçkün: "Şuşaya geri qayıdacağıma inanırdım"

"Otuz iki ildir yurd həsrəti çəkirdik. Axır ki, bu gün torpaqlarımıza qayıdırıq. Sevincimizin həddi-hüdudu yoxdur".

AZƏRTAC xəbər verir ki, bu sözləri jurnalistlərə açıqlamasında Şuşaya köçən sakin Həsən Zülfiqarov söyləyib. Şuşaya geri qayıdacağına hər zaman inandığını deyən keçmiş məcburi köçkün bir vaxtlar orada döyüşdüyünü bildirib. "Şuşanın azad edilməsində canını fəda edən şəhidlərimizə Allahdan rəhmət diləyirəm, qazilərimizə şəfa arzulayıram. Azərbaycan xalqı, dövləti hər zaman var olsun", - deyə o vurğulayıb.

## Şəms MƏMMƏDOVA: "Artıq illərdir davam edən yurd həsrəti sona çatır"

"Şəhidlərimizin sayəsində bu gün torpaqlarımıza qayıdırıq. Şəhid qızı kimi çox xoşbəxtəm ki, Şuşaya geri dönürük".

Bu sözləri AZƏRTAC-a açıqlamasında Şuşaya geri qayıdan keçmiş məcburi köçkün Şəms Məmmədova söyləyib.



"Şuşadan məcburi köçkün düşəndə dörd yaşım var idi. Bu gün isə övladlarımla birlikdə Şuşaya qayıdırıq. Şuşa mənim xatirəmdə əvəzolunmaz şəhər kimi qalıb. Hər zaman inanırdım ki, torpaqlarımız işğaldan azad ediləcək və biz orada yaşayacağıq", - deyə keçmiş məcburi köçkün vurğulayıb.

Müəllimlik peşəsini Şuşada davam etdirmək istədiyini deyən Ş. Məmmədova artıq illərdir davam edən yurd həsrətinin sona çatdığını bildirib.



## Şuşaya köçən sakin: "Geri qayıtmaq olduqca qürurvericidir"

"Ailəm ilə birlikdə Şuşadan məcburi köçkün kimi ayrılmışdıq. Bu gün isə şəhidlərimizin, qazilərimizin sayəsində ailəmizlə Şuşaya qayıdırıq".

AZƏRTAC xəbər verir ki, bu sözləri jurnalistlərə açıqlamasında Şuşaya köçən sakin Əsli Zülfiqarova söyləyib. Şuşanın alınmasını eşidəndə çox sevincli və həyəcanlı olduğunu deyən Ə.Zülfiqarova əlavə edib ki, geri qayıtmaq onlar üçün olduqca qürurvericidir.

Azərbaycan. - 2024.- 22 dekabr (№ 283).- S.7.